AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASI NƏQLİYYAT NAZİRLİYİNİN QƏRARI* |
| Qəbul edildiyi tarix | *27.03.2014* |
| Qeydiyyat nömrəsi | *10/Q* |
| Adı | *"Nəqliyyat Nazirliyinin balansında olan ümumi istifadə edilən avtomobil yollarının təhkim və qorunma (mühafizə) zolağında müvafiq işlərin görülməsinə razılıq verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in təsdiq edilməsi haqqında* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *09.04.2014* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *180.010.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201403270010* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *08.04.2014* |

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi

**qərara alır:**

1. "Nəqliyyat Nazirliyinin balansında olan ümumi istifadə edilən avtomobil yollarının təhkim və qorunma (mühafizə) zolağında müvafiq işlərin görülməsinə razılıq verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament" təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsinə (Aydın Süleymanlı) tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Bu qərarın icrasına nəzarət nazir müavini Musa Pənahova həvalə edilsin.

Nazir Ziya Məmmədov

Azərbaycan Respublikası Nəqliyyat
Nazirliyinin 2014-cü il 27 mart tarixli, 10/Q
nömrəli qərarı ilə təsdiq edilmişdir

**Nəqliyyat Nazirliyinin balansında olan ümumi istifadə edilən avtomobil yollarının təhkim və qorunma (mühafizə) zolağında müvafiq işlərin görülməsinə razılıq verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

1.1. Elektron xidmətin adı: Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinin (bundan sonra - Nəqliyyat Nazirliyi) balansında olan ümumi istifadə edilən avtomobil yollarının təhkim və qorunma (mühafizə) zolağında müvafiq işlərin görülməsinə razılıq verilməsi üçün müraciətin və sənədlərin qəbulu.

1.2. Elektron xidmətin məzmunu: Bu xidmət Nəqliyyat Nazirliyinin balansında olan ümumi istifadə edilən avtomobil yollarının təhkim və qorunma (mühafizə) zolağında tikinti, yenidənqurma və ya quraşdırma işlərinin görülməsinə razılığın elektron qaydada verilməsini nəzərdə tutur.

1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:

1.3.1. “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının 1999-cu il 22 dekabr tarixli 778-IQ nömrəli Qanununun 13-cü maddəsi;

1.3.2. “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 14 may tarixli 648-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 2 iyul tarixli 933 nömrəli Fərmanının 3.5-ci bəndi;

1.3.3. “Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 fevral tarixli 1992 nömrəli Sərəncamının 3.2-ci bəndi.

1.3.4. “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;

1.3.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları” və “Elektron xidmət növlərinin Siyahısı”nın 16.5-ci bəndi;

1.3.6. “Azəryolservis” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 noyabr tarixli 180 nömrəli Qərarının 3.1-ci bəndi, 3.2.2-ci və 3.2.14-cü yarımbəndləri.

1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı: Nəqliyyat Nazirliyi.

1.5. Elektron xidmətin digər icraçıları: “Azəryolservis” Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - “Azəryolservis” ASC).

1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi: Qismən.

1.7. Elektron xidmətin icra müddəti: Tikinti, yenidənqurma və ya quraşdırma işlərinin görülməsinə razılıq verilməsi barədə müraciətə qeydə alındığı gündən başlayaraq 15 gündən gec olmayaraq müddətində baxılır.
1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi: Avtomobil yollarının təhkim və qorunma (mühafizə) zolağında tikinti, yenidənqurma və ya quraşdırma işlərinin görülməsinə razılıq verilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. Elektron xidmətin növü: İnteraktiv.
2.2. Elektron xidmət üzrə ödəniş: Ödənişsiz.
2.3. Elektron xidmətin istifadəçiləri: Fiziki və hüquqi şəxslər.
2.4. Elektron xidmətin təqdim olunma yeri:
www.e-gov.az; www.e-transport.gov.az
2.5. Elektron xidmət barədə məlumatlandırma:
İnternet ünvanı: www.mot.gov.az ; www.e-transport.gov.az
Elektron poçt: info.tech.terms@mot.gov.az
Telefon: (+99412)430-99-48
2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:
- Elektron imza ilə təsdiq edilmiş ərizə (əlavə olunur);

*Aşağıdakı sənədlərin skan edilmiş surətləri müraciətə əlavə edilir:*
- Avtomobil yolunun adı və istiqaməti göstərilməklə sahənin sxemi;
- Tikintisi, yenidən qurulması və ya quraşdırılması nəzərdə tutulan obyektin (qurğunun) texniki planı.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. İnteraktiv xidmətlər üçün sorğu:

3.1.1. Sorğunun formalaşdırılması: İstifadəçi inzibati reqlamentin 2.4-cü bəndində göstərilən internet ünvanlara daxil olaraq müəyyənləşdirilmiş avtorizasiya prosesini keçir. Bundan sonra açılan ərizə formasını yükləyərək doldurur və elektron imza ilə təsdiq etdikdən sonra bu reqlamentin 2.6-cı bəndində göstərilən sənədlərin skan edilmiş surətlərini əlavə edərək göndərir.

3.1.2. Sorğunun qəbulu: Sorğu inzibati reqlamentin 2.4-cü bəndində göstərilən internet ünvanlara daxil olduğu tarixdə qeydə alınır və bu barədə dərhal istifadəçinin elektron poçt ünvanına bildiriş göndərilir. Sorğunun sonrakı icrası ilə bağlı istifadəçiyə bildiriş göndərilir.

3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:

3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları: Təqdim olunmuş sənədlərdə çatışmazlıqlar (ərizə formasının tam doldurulmaması, bu Reqlamentin 2.6-cı bəndində qeyd olunan sənədlərin əlavə olunmaması) aşkar edildikdə istifadəçiyə razılıq verilməsindən

imtina edilir. İstifadəçiyə razılıq verilməsindən imtina edildikdə, bu barədə onun elektron poçt ünvanına imtinanın səbəbləri göstərilməklə 3 gün müddətində bildiriş göndərilir.

3.2.2. Sorğunun qəbulu: İstifadəçi tərəfindən çatışmazlıqlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra, tikinti, yenidənqurma və ya quraşdırma işlərinin görülməsinə razılıq verilməsi məsələsinə yenidən baxılır və nəticəsi haqqında istifadəçiyə elektron poçtla məlumat verilir.

3.3. Sorğunun icrası:

3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat: Sorğu qəbul edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”a uyğun olaraq qeydiyyata alınır və məsul quruma icra edilməsi üçün göndərilir.

3.3.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti: Məsul qurumda sorğuya və ona əlavə edilən sənədlərə baxılır və çatışmazlıqlar aşkar edildikdə, bu barədə istifadəçinin elektron poçt ünvanına 5 gündən gec olmayaraq bildiriş göndərilir. Həmin çatışmazlıqlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra tikinti, yenidənqurma və ya quraşdırma işlərinin görülməsinə razılıq verilməsi barədə müraciətə 10 gün müddətində yenidən baxılır və müvafiq qərar qəbul edilir.

3.3.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat: Yoxdur.

3.3.4. Hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası: Çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda, 15 gündən gec olmayaraq tikinti, yenidənqurma və ya quraşdırma işlərinin görülməsinə razılıq verilməsi haqqında qərar qəbul edilir. Bundan sonra razılıq rəsmiləşdirilərək istifadəçiyə birbaşa təqdim olunması və ya poçt rabitəsi vasitəsilə göndərilməsi yolu ilə verilir.

3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət: Xidmətin yerinə yetirilməsinə nəzarəti Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi həyata keçirir.

3.4.1. Nəzarət forması: kargüzarlıq və daxil olmuş sorğuların avtomatlaşdırılmış rejimdə mütəmadi monitorinqi

3.4.2. Nəzarət qaydası: Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”la müəyyən edilmiş qaydada.

3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:

3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat: İstifadəçi göstərilən elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya: Şikayət kağız üzərində və ya elektron qaydada tərtib olunur. Kağız üzərində şikayət Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin poçt ünvanına, elektron şikayət isə inzibati reqlamentin 2.5-ci bəndində göstərilən e-poçt ünvanına göndərilir. Şikayət ərizəsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.

3.5.3. Şikayətin baxılma müddəti: Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78.1-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

3.5.4. Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2014-cü il 27 mart tarixli 10/Q nömrəli qərarı ilə təsdiq edilmiş “Nəqliyyat Nazirliyinin balansında olan ümumi istifadə edilən avtomobil yollarının təhkim və qorunma (mühafizə) zolağında müvafiq işlərin görülməsinə razılıq verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament”ə əlavə

Azərbaycan Respublikasının
Nəqliyyat Nazirliyinə

# Ərizə

Ümumi istifadədə olan avtomobil yollarının təhkim və qorunma (mühafizə) zolağında müvafiq işlərin görülməsinə razılığın verilməsi haqqında

İstifadəçi______________________________________________________________

(Fiziki şəxs üçün: soyadı, adı, atasının adı; Hüquqi şəxs üçün: hüquqi şəxsin (və ya onun qurumunun) adı, rəhbərin soyadı, adı, atasının adı)

______________________________________________________________________

(poçt indeksi göstərilməklə ünvan)

______________________________________________________________________

(telefon, faks, e-poçt ünvanı)

Sizdən xahiş edirəm ki,_______________________________________________

(avtomobil yolunun adı )

______________________________________________________________________

______________________________________________________________________

(müvafiq işlərin təsviri)

görülməsinə razılıq verəsiniz.

«____»____________20__ il.                                        __________________

(imza)

M.Y.